# KİÇİK KƏNDİN BÖYÜK OĞLU

*85 il bundan əvvəl dünyaya gəlmiş və bu dünyadan vaxtsız getmiş Cəlal Nuhovu xatırladım...*



Cəlal Nuhbala oğlu Nuhov 85 il bundan öncə, 1930-cu ildə Quba rayonunun Gəray kəndində anadan olub.

1949-cu ildə Quba Pedaqoji Məktəbini bitirəndən sonra Xaçmazın Xudatkənd yeddiillik məktəbində müəllim işlədi. O, 1951/54-cü illərdə Ordu sıralarında xidmətdən sonra da Qubanın kənd məktəblərində müəllimlik etdi, şagirdlərə rus dilini öyrətməklə yanaşı, özü də daima öyrənməkdən çəkinmədi. 1962-ci ildə Pyatiqorsk Dövlət Pedaqoji Dillər İnstitutunun dil-ədəbiyyat fakultəsini qiyabi olaraq başa vurdu...

Əvvəldən Cəlal Nuhovun jurnalistliyə böyük həvəsi vardı. Hələ müəllim işləyən çağdan Qubada çıxan "Şəfəq" qəzetinin xüsusi müxbiri kimi tanınırdı. SSRİ Jurnalistlər İttifaqının üzvü olan Cəlal Nuhov 1964-cü ildən "Əməkdar jurnalist" adına layiq görüldü. 65-ci ildən "Bakinski raboçi" qəzetinin xüsusi müxbiri olmaqla bərabər, "Nauka i religiya" jurnalı ilə də əməkdaşlığa başladı.

C.Nuhov həm də fəlsəfə elmləri namizədiydi, vaxtaşırı elmi araşdırmalar aparırdı. O, Ali Sovetin fəxri fərmanı, Jurnalistlər İttifaqının "Qızıl qələm" mükafatı ilə də təltif olunmuşdu.

Cəlal müəllim jurnalistlika ilə yanaşı, müntəzəm olaraq bədii əsərlərin tərcüməsi ilə də məşğul olurdu. V.Kojevnıkovun "Qalxan və Qılınc", C.Oldricin "Diplomat" romanlarını, N.Suslovun "Abverin Casusu", İ.Andronikovun "Sizə söyləmək istərdim" əsərlərini azərbaycan türkcəsinə çevirmişdi.

3 oğul, 4 qız atası olan Cəlal Nuhbala oğlu Nuhov 1986-cı il iyulun 20-də, çox vaxtsız, 56 yaşında dünyadan köçdü. 40-45 il öncə onun təşəbbüs və müraciətindən sonra kənddəki mağaza-anbar binası hazırda xalça sexi kimi istifadə edilməkdədir... Tanınmış jurnalist, filosof və pedaqoq, bacarıqlı tərcüməçi Cəlal Nuhovun xatirəsini doğulduğu kənddə, ya elə Qubanın özündə daha urvatlı şəkildə əbədiləşdirmək olmazdımı?

C. Albantürk

*Azərbaycan Yazıçılar Birliyinin üzvü*